# Xocalı soyqırımı Azərbaycan xalqına qarşı törədilmiş ən dəhşətli cinayətdir

Fevralın 23-də Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirildi. Əvvəlcə Xocalı soyqırımı qurbanlarının, eləcədə bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sukutla yad edildi. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor **Rahim Hüseynov** canlı şahidi olduğu Xocalı soyqırımından, onun baş vermə səbəblərindən danışdı. Bu gün insanlığa qarşı törədilən amansızlığına, qəddarlığına görə bəşər tarixində qanlı iz salmış Xocalı qətliamından 26 il keçir dedi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlılara qarşı misli görünməmiş dəhşətli faciə törədildi. Erməni qəsbkarları keçmiş sovet ordusuna məxsus olan 366-cı motoatıcı alayın əsgərlərinin köməyi ilə Azərbaycanın gözəl bir şəhərini yerlə-yeksan etdilər.

**Xocalı soyqırımı zamanı 613** nəfər azərbaycanlı, o cümlədən **106 qadın, 63 uşaq, 70 qoca** vəhşicəsinə qətlə yetirildi. **59 nəfər xüsusi qəddarlıqla öldürüldü. O dəhşətli faciədə 8 ailə** tamamilə məhv edilmiş, **25 uşağın** hər iki valideyni qətlə yetirilmiş, **130 uşağın** valideynlərindən biri öldürülmüşdür. **76 uşaq şikəst** edilmişdir. **1275 nəfər əsir və girov götürülmüş**, **150 nəfər qız-gəlinin** taleyi isə bu günədək məlum deyil... **Soyqırımı zamanı 487** nəfər əlil olmuşdur.

Xocalı faciəsini dünyada misli görünməmiş qəddarlıq adlandıran rektor o hadisələrin iştirakçısı, canlı şahidi kimi yaralılara göstərilən tibbi yardımlardan, xalqın bu faciəyə münasibətindən, insanların yaralılara qan vermək üçün növbəyə dayandıqlarından maraqlı faktlar danışdı. Ordumuzun aprel döyüşlərindəki qələbəsini yada salan rektor Cocuq Mərcanlıya qayıdışı Xocalıya qayıdışın baçlanğıcı adlandırdı.

Anım mərasimində çıxış edən universitetin Filologiya fakultəsinin dekanı professor Raqub Kərimov, universitetin professoru Cümşüd Nuriyev, Tələbə Gənclər Təşkilatının sədr müavini Roya Hacıyeva və başqaları bu faciənin törətdiyi dəhşətli faktlardan danışdılar. Natiqlər öz çıxışlarında Xocalı soyqırımının dünyaya çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın və Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın xidmətlərini qeyd etdilər. Məhz Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlanmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası bu soyqırımı haqqında həqiqətləri dünyaya çatdırıldığını vurğuladılar.